# SURXAY ƏLİBƏYLİ XOŞBƏXT ADAMMIŞ

## Çünki dostları onu unutmurlar

**Mən hələ indiyə qədər xoşbəxtliyin tərifini və düsturunu tapa bilməmişəm. Və hərə də xoşbəxtliyi bir cür yozur. Mənim də xoşbəxt illərim, günlərim, aylarım olub. Ən xoşbəxt günlərim atalı-analı, qardaşlı günlərim idi. Elə ki atamı itirdim, elə ki qardaşım dünyasını dəyişdi, elə ki anam Allahın dərgahına qovuşdu, bununla da mənim xoşbəxtliyimə bir nöqtə qoyuldu. Mən naşükür adam deyiləm ha! Gözəl ailəm, balalarım, nəvələrim var. Buna min şükür! Amma xoşbəxtliksə tam başqa bir şeydi. Onun nə rəngi var, nə dadı var, nə də tamı. Sadəcə olaraq, hər insan qismət olsa bu anı yaşayır...**

Yazımın sərlövhəsində qeyd elədim ki, Surxay Əlibəyli xoşbəxt adammış. Bunu elə-belə, təsadüfən işlətmədim. Surxay Əlibəyli çox istedadlı jurnalist, publisist olub və çox da vətənpərvər bir ziyalı idi. Əgər insan dünyasını dəyişirsə və hər an doğmaları deyil, dostları tərəfindən xatırlanırsa, elə bu özü çox böyük xoşbəxtlikdir. Sağ adamlar sağ olsa da, onun sağlığıyla ölümü bilinmir. Yəni belələri sağ olsa da ölü kimidir. Çünki onlar nə xeyirdə görünürlər, nə də şərdə. Amma Surxay Əlibəyli kimi ziyalılar hər an, hər dəqiqə doğmaları və dostları tərəfindən xatırlanırsa, deməli, o yaşayır. Və deməli, Surxay 69 il ömrünü elə-belə başa vurmayıb. Bu dünyaya gəlib və öz sözünü deyib, izini qoyub, Allahın dərgahına dönüş edib...

Jurnalist dostumuz Həşim Həsənoğlu ötən şənbə, yəni mart ayının 2-də gəlib dedi ki, ayın 3-ü Surxayın dostları bir yerə yığışacaq və onu yad edəcəklər. Sən də ora dəvətlisən. Çünki rəhmətliklə dostluq eləmisən, duz-çörək kəsmisən və hətta "Ədalət"də bir yerdə işləmisiniz. Oğlu Altay dedi ki, məclis həmişə Surxayın yeyib-içdiyi yeməkxanada olacaq.

Şənbə günü axşam gözəl ziyalı və gözəl də jurnalist Surxay müəllimin oğlu Altay Əlibəyliyə telefon açdım. Ancaq nədənsə cavab vermədi. Bazar günü səhər saatlarında ondan mənə zəng gəldi. Dedi ki, mənim nömrəmə zəng vurmusunuz, kimdi? "Faiq Qismətoğludu" - dedim. Onun çox yorğun səsini eşitdim. Və adımı eşidəndə səsinin şirinliyi bir qədər artdı. Dedi ki, mən atama çox şey eləyə bilmədim. Gərək onun qədrini yaxşı biləydim. Düzdür, müəyyən yerə su çəkdirmişəm, yol düzəltdirmişəm. Bunu ona görə elətdirmişəm ki, qoy atamın ruhu şad olsun və mənim də ürəyim sakitləşsin. Qayıdıb dedim ki, Altay müəllim, təki bütün oğullar sizin kimi atasına belə bir dəyər verisin. Siz həm Surxayın sağlığında, həm də dünyasını dəyişəndən sonra bir oğul kimi çox işlər görmüsünüz. Hər oğul bunu eləmir. Allah üzünü ağ eləsin!

Bazar günüdür. Surxay Əlibəylinin qələm dostları: tanınmış jurnalistlər Süleyman Qaradağlı, Asif Talıboğlu, Elşən Əliyev, Qələndər Xaçınçaylı, Həşim Həsənoğlu, Surxayın qardaşı Etibar Toğrul və bu sətirlərin müəllifi deyilən yerə gəlmişik. Qardaşı Etibar bizi çox böyük sevgiylə qarşılayır. Masa arxasında əyləşirik və rəhmətlik Surxayın ruhunu bir dəqiqəlik sükutla yad edirik. Sonra süfrəyə müxtəlif təamlar gəlir. Amma hamının ürəyi Surxay barədə doludur. İstedadlı jurnalist Süleyman Qaradağlı Surxayla olan son günlərini xatırlayır. Deyir ki, rəhmətə getməmişdən bir gün əvvəl telefonla danışdım, həmişə görüşdüyüm yerə dəvət elədim. Hiss etdim ki, səsi də zəifdi, heyi də yoxdur. Biz burda onunla çox çörək kəsmişik. Surxay çörək kəsməli, dostluq eləməli adam idi. Necə idisə elə də görünürdü. Yəni başqaları kimi cilddən-cildə girməzdi...

Şair-publisist Asif Talıboğlu Surxay Əlibəyli ilə bağlı kövrək xatirələrini yada saldı. Dedi ki, mən Surxayla çox yerdə olmuşam. Onu vətən dərdi öldürdü. Ağdamdan danışanda həmişə ağlayardı. Heç bilməzdim ki, onun ürəyi bu qədər yumuşaqmış. Təsəlli olaraq deyirdim ki, Surxay, darıxma, bir gün özümüz ora gedə bilməsək də, ruhumuz Ağdama, Qubadlıya gedəcək.

Şair Qələndər Xaçınçaylı Surxaya olan sevgisindən söhbət açdı. Dedi ki, Surxay mənə çox çörək verib. Çibimdə



pulum olmayanda cibimə pul qoyub, yeməkxanaya aparıb qonaqlıq verib. Ağdamda, Yevlaxda, Ağcabədidə Surxayla çox gözəl günlər yaşamışıq. İndi o günləri yada salanda qəlbim göynəyir. Amma mənə təsəlli olan odur ki, Surxay kişi kimi adam idi. Başqaları kimi qeybət eləyən, badalaq atan deyildi. Sonra Qələndər Xaçınçaylı bir şeir də oxudu. Surxayın yaxın dostu Elşən Əliyevsə onunla bağlı xatirələrini dilə gətirdi. O xatirələr ki, Elşən müəllim danışanda bizi də kövrəltdi. Və qəribədir ki, Elşən müəllim onun heç kəsin bilmədiyi xarakterindən söhbət açdı. Təbii ki, dostların hamısı öz sevgilərini ona bildirirdilər.

Surxayın yaxın dostlarından biri də Həşim Həsənoğlu olub. O Həşim Həsənoğlu ki, Surxayla birlikdə kitab yazıb, məqalələr hazırlayıb və oxuculara çatdırıb. Həşim müəllim də Surxayla bağlı şirin xatirələrini dilə gətirdi. Və gördüm ki, Surxay haqqında danışanda gözləri dolur. Hər halda, bu, Surxaya olan dost sevgisiydi, dost məhəbbətiydi.

Surxay Əlibəyli müxtəlif vəzifələrdə çalışıb, hətta rəhmətlik Əbülfəz Elçibəylə çox yaxın dostluq eləyib. Surxay istəsəydi çox şey qazanardı. Yəni başqaları kimi bəydən nəsə xahiş eləyərdi, bəy də onu yerinə yetirərdi. Ancaq Surxay öz təmizliyi, öz saflığıyla Elçibəyin böyük sevgisini qazanmışdı. Elçibəy də bilirdi ki, Surxay təmiz adamdı, elə ona görə də onunla dostluq eləyərdi. O, Ağdamda Mədəniyyət evinin müdiri və parkın direktoru olanda da həmişə dostlarına sədaqətli olub. Kimsə onun yanına getsəydi, Surxay onu heç vaxt yedirdib-içirtmədən buraxmazdı. Çünki onun dünya boyda ürəyi vardı. Surxay müəllim bir tikə çörəyini beş-altı yerə bölməyi bacaran kişi idi. O heç vaxt masaya qoyulan yeməyi yeməz, öz qabağına çəkməz, birinci yoldaşına təklif edərdi.

1990-cı ilin əvvəllərində Aqil Abbas bərk xəstələnmişdi. Daha doğrusu, fəqərə yırtığı olduğuna görə, neyrocərrahiyyə xəstəxanasında yatırdı. Həkimlər nə qədər ona iynə vursa da, ağrısı kəsmirdi. Bir gün Surxay səhər-səhər ona xaşla tut arağı gətirmişdi. Aqil müəllim də xaşla tut arağını yaxşı-yaxşı vurdu və Lətif Süleymanlıdan alıb çarpayının başına bağladığı qalstukdan yapışaraq durub oturdu. Bu vaxt həkim otağa girdi, hiss etdi ki, tut arağının iyi gəlir. Aqil Abbas həkimi qabaqladı, dedi ki, həkim, sizin iynələrdən çox bu arağın mənə xeyri dəydi. Ona görə durub yerimdə oturmuşam. Həkim də bir söz deməyib gülüb getdi. Sabahı gün Aqil Abbası qucağımıza alıb maşına əyləşdirərək Semaşkaya apardıq. Orda rəhmətlik Elçin Kazımov onu manuel-terapeya, yəni xalq dilində demiş olsaq, masaj elədi. Aqil müəllim ayağa qalxdı, yerdi və maşına əyləşib işə gəldi. Elə o masajla da Aqil müəllim sağaldı. Surxay Əlibəyli yaşadığı 69 il ərzində heç kim deyə bilməz ki, kiməsə pislik eləyib. O, qarışqanı da basdalayıb keçməzdi. Onun öz dünyası vardı və öz dünyasında da öz dostları olardı. Dünya malında gözü olmazdı, əlində beş-on manat pulu olsaydı, həmin dostlarını çağırıb elə bu yeməkxanada qonaqlıq verərdi.

Bu gün çərşənbə günüdür. Daha doğrusu, od çərşənbəsidir. Bu çərşənbə günü yazımı qələmə aldım. Deyirəm ki, bu gözəl gündə qoy Allah-Təala onun ruhunu şad eləsin, məzarını nurla doldursun!

Sonda onu demək istəyirəm ki, Surxay Əlibəyli böyük Ramiz Rövşənin "Qara paltarlı qadın" şeirini çox sevirmiş. Elə həmin şeiri də oxucuların diqqətinə təqdim edirik. Qoy bu şeir də Surxayın ruhuna bir sığal çəksin:

**Kişlər bir olmur, atam balası,**
**qorxağı var,**
**igidi var.**
**Amma hər kişinin öləndən sonra**
**qəbri üstə ağlayası**
**Bir qara paltarlı gözəl qadına**
**ümidi var.**
**Sən öləndə**
**kim olacaq gözlərini bağlayan?**
**Qardaşmı olacaq?**
**Yadmı olacaq?**
**Bu dünyada**
**bəlkə sənə ən çox ağlayan**
**Ən çox ağlatdığın qadın olacaq.**
**Göz yaşları yuduqca baş daşını,**
**Qəbrində qurcalanıb**
**deyəcəksən, İlahi,**
**İllər boyu ağlatdığım bu qadın**
**görən necə saxlayıb**
**bu qədər göz yaşını?!**
**Bircə kərə**
**nə saçını oxşamışam,**
**nə gözünü silmişəm,**
**Gözlərimə batır indi**
**saçlarının hər dəni.**
**İllər boyu**
**bu qadına mən axı dərd vermişəm,**
**İndi görən niyə çəkir dərdimi?!**
**Bu qadın**
**baş daşımı**
**öpüb sığallamaqdansa,**
**Yumruğuyla döysə, döysə yaxşıdı,**
**Qəbrimin üstündə ağlamaqdansa,**
**Məni söysə yaxşıdı.**
**Yeri, yeri, qara paltarlı qadın,**
**Kiri, kiri, qara paltarlı qadın.**
**Bu qəbir də min qəbirdən biridi,**
**baş daşımı bəsdi basdın bağrına**
**Bütün mənə ağlayanlar kiridi,**
**Sən də kiri, qəbrim damır, ağlama!..**

**Faiq QİSMƏTOĞLU**